# İrəvanın "sülh" imitasiyası

## Aİ müşahidə missiyası yenə də qeyri-şəffaf fəaliyyət göstərir

"Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlığın təmin olunmasında maraqlıdır. Ona görə də, Ermənistana sülh sazişi imzalamağı təklif edib. Lakin Ermənistan bu təşəbbüsə adekvat cavab vermir. Rəsmi İrəvanın sözdə sülh tərəfdarı olmasından danışması imitasiyadan başqa bir şey deyil".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib. O bildirib ki, Paşinyan hakimiyyəti bu addımı ilə beynəlxalq ictimaiyyəti aldatmağa çalışır.

Deputat qeyd edib ki, Ermənistan hər zaman qeyri-konstruktiv mövqe nümayiş etdirib. İrəvan 30 illik işğal siyasəti həyata keçirən zaman da sülhdən danışırdı. Məqsəd isə bundan ibarət idi ki, torpaqlarımızı həmişə işğal altında saxlaya bilsin. Keçmiş ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin heç bir nəticə verməməsi bunun göstəricisi idi. Çünki Ermənistan danışıqlara guya sülh tərəfdarı olması görüntüsü yaratmaq üçün qatılırdı. Sülh prosesində isə bir addım belə irəli atılmadı. Ona görə də, Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad edərək beynəlxalq hüququ təmin etdi.

Ermənistanın 44 günlük müharibədə ağır məğlubiyyətə uğramasından lazımi dərs çıxarmadığını bildirən S.Fətəliyeva deyib ki, rəsmi İrəvan xarici havadarlarının təhriki ilə sülh sazişi imzalamaqdan yayınır, revanşist iddialarla çıxış edir: "Bu səbəbdəndir ki, son üç ildən artıq müddətdə törətdiyi təxribatlara görə ordumuz tərəfindən layiqli cavab alsa da, erməni tərəfi bu yaramaz əməllərini davam etdirir. Fevralın 12-də Zəngilan istiqamətində mövqelərimizə atəş açılması və bir sərhədçimizin yaralanması da bunu təsdiqləyir. Sərhədçimizin snayperlə vurulması Ermənistanın növbəti məqsədyönlü təxribatıdır. Bu günlərdə Ermənistan baş naziri Paşinyanın "The Telegraph" nəşrinə aqressiv tonda verdiyi müsahibəsi də Ermənistanın növbəti təxribat hazırladığından irəli gəlirdi. Digər tərəfdən, Ermənistan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komitəsinin sədr müavini Armen Xaçatryanın Ermənistanın Fransadan, Hindistandan silah alması, silahlanma sahəsində böyük həcmdə iş aparması, bunun nəticələrinin yaxın zamanlarda özünü göstərəcəyini deməsi də Ermənistanın yeni hərbi təxribatlarının ola biləcəyini istisna etmirdi".

Komitə sədrinin müavini qeyd edib ki, ermənilərin hərbi təxribatı bu ölkədəki Avropa İttifaqı Müşahidə Missiyasının (EUMA) monitorinqi altında olan ərazidə baş verib. Hadisənin Ermənistan silahlı qüvvələri tərəfindən qəsdən və məqsədyönlü şəkildə törədildiyi və vəziyyətin gərginləşməsinə çalışıldığı aydın görünür. Bu, o deməkdir ki, Ermənistan Aİ missiyasının arxasında gizlənərək öz çirkin niyyətlərini reallaşdırmağa çalışır.

Sevinc Fətəliyeva bildirib ki, Aİ missiyasının genişləndirilməsinin, eləcə də, Fransanın Ermənistanı silahlandırmasının regionda vəziyyətin gərginləşməsinə xidmət etdiyi Azərbaycan tərəfindən dəfələrlə vurğulanıb. Bir müddət öncə Fransa generalının Ermənistana səfəri və Azərbaycanla sərhədə gəlməsi, sərhəddə Çexiya vətəndaşının saxlanması və digər faktlar Ermənistanın revanş planlarından hələ də əl çəkmədiyini göstərir. Bunun bir sübutu da erməni snayperin sərhəd mövqelərinə gətirilib yerləşdirilməsidir. "Azərbaycan Aİ missiyasının öz ərazisində yerləşdirilməsinə əvvəlcədən qəti şəkildə etiraz edib. Çünki müəyyən beynəlxalq dairələrin regionda hansı maraqlar güddüyü məlumdur. Ona görə də, Avropa İttifaqı "müşahidə" ideyasından çəkinməli idi, çünki istənilən halda EUMA-nın birtərəfli və qeyri-şəffaf fəaliyyət göstərəcəyi gözlənilən idi", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, müəyyən qüvvələr uydurmalar əsasında bölgədə müharibə riskinin olduğunu yayaraq, hərbi qarşıdurma yaratmağa çalışırlar. Görünən odur ki, bu oyunların təşkilatçıları üçün Ermənistan alətdir. Onlar çox gözəl başa düşürlər ki, Azərbaycan öz təhlükəsizliyinə, ərazi bütövlüyünə və dövlət suverenliyinə daimi təhlükələrin qarşısını həmişə alacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***